# "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə[1]

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1395-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 2, maddə 82; 2001, 12, maddə 736; 2002, 3, maddə 116, 5, maddə 245; 2004, 2, maddələr 57, 58; 2005, 4, maddə 278; 2007, 8, maddə 752, 11, maddə 1079; 2009, 4, maddə 212, 8, maddə 611; 2010, 3, maddə 172; 2015, 2, maddə 82, 11, maddələr 1258, 1292; 2016, 1, maddə 40) 11-ci maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3-1-ci bənd əlavə edilsin:

"3-1) Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərini olduğu kimi yaymasına;".

2. 4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4) yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yaymasına yol verilmir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 aprel 2016-cı il
213-VQD

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**)

### QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**) ilə ləğv edilmişdir.